# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ BÜLLETENİ

İYUL 2026

# MÜNDƏRİCAT

3 Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib

4 Hakimlərin Seçki Komitəsinin məlumatı

6 Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyulması ilə bağlı məhkəmə aktlarına dair Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı

7 Ali Məhkəmədə Latviya Respublikasının Konstitusiya Məhkəməsinin sədri ilə görüş keçirilib

8 Pakistan Respublikasının Hüquq və Ədliyyə naziri Ali Məhkəmədə olub

9 Azərbaycan nümayəndə heyəti Tacikistanda keçirilən "Məhkəmə ədalət mühakiməsi sistemində qadınlar: dialoq, inkişaf və ədalətlilik" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir

10 Bakıda Azərbaycan və Pakistan arasında əməkdaşlıq çərçivəsində beynəlxalq təlim keçirilib

11 Qərarlar

18 Hüquqi aktlar

25 Dünyada hüquq

# Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib



2026-ci il iyulun 7-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda "Podrat müqaviləsindən irəli gələn mübahisələr üzrə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərar layihəsi, həmçinin "Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Plenumun 2026-cı il 7 iyul tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair qərar layihəsi müzakirə olunaraq, müvafiq qərar olunub.

Sonra "Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması cinayətinə dair işlər üzrə məhkəmə təcrübəsi, habelə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə cinayətinə dair bəzi məsələlər haqqında" Plenumun 2023-cü il 20 fevral tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələrinin təhlilinə dair arayış müzakirəyə çıxarılıb.

İclasda "Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəliyin qoyulması ilə bağlı məhkəmə aktlarına dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərar layihəsi, həmçinin "Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyulması ilə bağlı məhkəmə aktlarına dair" Plenumun 2026-cı il 7 iyul tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair qərar layihəsi müzakirə olunaraq, müvafiq qərar qəbul olunub.

İclasda həmçinin konkret işə baxılıb.

# Hakimlərin Seçki Komitəsinin məlumatı



Hakimlərin Seçki Komitəsi bildirir ki, test imtahanında müvəffəqiyyət qazanmış 175 nəfər hakimliyə namizədlə yazılı imtahan 26 sentyabr 2026-cı il tarixdə saat 11:00-da Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda (Bakı şəhəri, Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi 50) təşkil ediləcəkdir.

"Vakant hakim vəzifələrinə namizədlərin seçilməsi Qaydaları"na uyğun olaraq yazılı imtahan elektron qaydada keçiriləcəkdir.

İmtahanda verilmiş kazusların şərh edilməsinə dair xüsusatlar və onların qiymətləndirilməsi zamanı diqqət yetiriləcək məqamlar Məhkəmə-Hüquq Şurasının saytında yerləşdirilmiş "Hakim vəzifəsinə namizədin yaddaş kitabçası"nda göstərilmişdir.

Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni sentyabr ayının 15-dən etibarən Məhkəmə-Hüquq Şurasının internet saytı (jlc.gov.az) vasitəsilə əldə edə bilərlər.

Həmçinin hakimliyə namizədlərin seçimində çevikliyin təmin edilməsi, habelə onların imtahanlara mükəmməl hazırlaşmalarına şəraitin yaradılması məqsədilə müsabiqənin ilkin mərhələsi olan test imtahanının 2027-ci ilin aprel ayının 11-də keçirilməsi qərara alınmışdır.

Namizədlərin imtahanlara hazırlaşmalarına köməklik məqsədilə imtahan suallarına dair annotasiya, habelə imtahan qaydalarını, namizədlərin imtahanla bağlı vəzifələrini və imtahan suallarının nümunələrini özündə əks etdirən "Hakim vəzifəsinə namizədin yaddaş kitabçası" Məhkəmə-Hüquq Şuranın rəsmi internet səhifəsində (jlc.gov.az) yerləşdirilmişdir.

İmtahanla bağlı, o cümlədən buraxılış vərəqələrinin təqdim olunması ilə bağlı namizədlərə əlavə məlumat veriləcəkdir.

Sənədlər Hakimlərin Seçki Komitəsi tərəfindən bütün iş günləri ərzində, o cümlədən elektron poçt (hsk@jlc.gov.az) ünvanı vasitəsilə qəbul edilir.

Əlaqə telefonları: (012) 510-22-97; (077) 308-43-10

# Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyulması ilə bağlı məhkəmə aktlarına dair Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı



Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən 2026-cı il 7 iyul tarixdə məhkəmə təcrübəsində qarşıya çıxan problemləri aradan qaldırmaq, hüquq tətbiqetmə təcrübəsinin vahidliyini təmin etmək, eləcə də məhkəməyədək inzibati icraatın keyfiyyətini artırmaq məqsədilə “Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyulması ilə bağlı məhkəmə aktlarına dair” Plenum Qərarı qəbul edilmişdir.

Qərar inzibati məhkəmə icraatında baxılan mübahisələndirmə və məcburetmə haqqında iddiaların fərqləndirilməsinin meyarlarını müəyyən edir, qapalı və diskresion səlahiyyətlərin mahiyyətini açaraq, həmin səlahiyyətlərin həyata keçirilməsi qaydasında qəbul edilmiş inzibati aktlar üzərində həyata keçirilən məhkəmə nəzarətinin hədlərini müəyyənləşdirir, diskresion səlahiyyətlər, qeyri-müəyyən hüquqi anlayışlar və qiymətləndirmə azadlığının məhkəmə tərəfindən yoxlanılması qaydasını izah edir, eləcə də məhkəmənin hüquqi mövqeyinin inzibati orqanlar tərəfindən nəzərə alınması məsələlərini həll edir.

Ali Məhkəmənin Plenumu həmçinin Qərarın tətbiqi ilə bağlı respublikanın inzibati məhkəmələrini və apellyasiya instansiyası məhkəmələrinin inzibati kollegiyalarını əhatə etməklə, 2027-ci ilin 1 yanvar tarixindən 2028-ci ilin 1 yanvar tarixinədək olan dövr ərzində məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasını qərara almışdır.

# Ali Məhkəmədə Latviya Respublikasının Konstitusiya Məhkəməsinin sədri ilə görüş keçirilib



2026-cı il iyulun 10-da Azərbaycan Respublikasının Ali Məhkəməsində Latviya Respublikası Konstitusiya Məhkəməsinin sədri İrena Kutsinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov bildirib ki, Latviya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər yüksələn xətlə inkişaf edir. Görüş zamanı qonaqlara ölkəmizin məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar və rəqəmsal transformasiya sahəsində görülən işlər barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqi genişləndirilir, hakim vəzifəsinə seçim prosedurları beynəlxalq standartlara uyğunlaşdırılır, qanunvericilik bazası isə davamlı olaraq təkmilləşdirilir. Bildirilib ki, məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə süni intellekt və digər innovativ rəqəmsal həllərin tətbiqi məhkəmə xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri İrena Kutsina iki ölkə arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Azərbaycanın məhkəmə sistemində aparılan islahatlar və əldə olunan nailiyyətləri yüksək qiymətləndirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Pakistan Respublikasının Hüquq və Ədliyyə naziri Ali Məhkəmədə olub



2026-cı il iyulun 21-də ölkəmizdə səfərdə olan Pakistan Respublikasının Hüquq və Ədliyyə naziri cənab Barrister Aqeel Malikin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Nümayəndə heyətini salamlayan Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində uğurla inkişaf etdiyini vurğulayıb. Bildirilib ki, iki ölkə arasında qarşılıqlı etimada və dostluğa əsaslanan əlaqələr hüquq sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

Görüş zamanı qonaqlara ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, məhkəmə fəaliyyətinin müasirləşdirilməsi istiqamətində görülən işlər, bu sahədə tətbiq olunan yeniliklər, hakimlərin seçimi, təyin edilməsi və fəaliyyətinin qiymətləndirilməsi mexanizmləri barədə ətraflı məlumat verilib.

Pakistan Respublikasının Hüquq və Ədliyyə naziri cənab Barrister Aqeel Malik səmimi qəbula görə təşəkkürünü bildirərək, Azərbaycan ilə hüquq sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin hər iki ölkənin məhkəmə sistemlərinin inkişafına və təcrübə mübadiləsinə mühüm töhfə verəcəyini qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan nümayəndə heyəti Tacikistanda keçirilən "Məhkəmə ədalət mühakiməsi sistemində qadınlar: dialoq, inkişaf və ədalətlilik" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir




2026-cı il 15–16 iyul tarixlərində Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində Tacikistan Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə "Məhkəmə ədalət mühakiməsi sistemində qadınlar: dialoq, inkişaf və ədalətlilik" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransda Azərbaycan məhkəmə sistemindən nümayəndə qismində Bakı Apellyasiya Məhkəməsinin hakimi Nigar Nəbizadə və Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi Rübabə Qafarova iştirak etmişdir.

Tədbir çərçivəsində iştirakçılar gender yönümlü ədalət mühakiməsinin inkişafı, məhkəmə sisteminin rəqəmsallaşdırılması, həssas şəxslərin ədalət mühakiməsinə çıxışının təmin edilməsi, ayrı-seçkilik və gender əsaslı zorakılıqla bağlı işlərə baxılması, habelə qadın hakimlərin peşəkar potensialının gücləndirilməsi məsələləri üzrə fikir və təcrübə mübadiləsi aparmışlar.

Konfrans çərçivəsində Bakı Apellyasiya Məhkəməsinin hakimi Nigar Nəbizadə "Laqeydlik olmadan qərəzsizlik: həssas şəxslərin iştirakı ilə baxılan işlərdə hakimin müasir rolu" mövzusunda məruzə ilə çıxış etmişdir. Çıxış zamanı həssas şəxslərin ədalət mühakiməsinə çıxışının təmin olunması, qərəzsizlik prinsipinin praktik tətbiqi, prosessual bərabərlik, stereotiplərin məhkəmə qərarlarına təsiri, eləcə də Azərbaycan Respublikasının qanunvericiliyi və məhkəmə təcrübəsi barədə məlumat verilmişdir.

# Bakıda Azərbaycan və Pakistan arasında əməkdaşlıq çərçivəsində beynəlxalq təlim keçirilib




2026-cı il iyulun 27-də hakimlər, Məhkəmə-Hüquq Şurası Aparatının və məhkəmələrin işçiləri "Hakim Peşəkarlığı: Rəhbər Səviyyəli Məhkəmə Təlim Proqramı" ("The Judicial Crafting: Executive Judicial Training Programme") adlı beynəlxalq təlim proqramında iştirak ediblər.

Təlimdə Pakistan İslam Respublikasının hüquq və ədliyyə üzrə dövlət naziri Aqil Malikin rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri, o cümlədən Pakistan Ali Məhkəməsinin hakimləri, Beynəlxalq Mediasiya və Arbitraj Mərkəzinin vəzifəli şəxsləri, İslam Əməkdaşlıq Təşkilatının Arbitraj Mərkəzinin baş katibi və digər ekspertlər tərəfindən təqdimatlar keçirilib, iştirakçılarla fikir mübadiləsi aparılıb. Təlim proqramı iki ölkənin ədliyyə və məhkəmə orqanları arasında bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, peşəkar əlaqələrin möhkəmləndirilməsi və institusional əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, təlim Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində təşkil olunub. Növbəti beynəlxalq təlimin cari ilin oktyabr ayında Pakistan İslam Respublikasında keçirilməsi planlaşdırılır.

## Cinayət işləri üzrə
## ★★★ statuslu qərar

**1[1-8]-316/2026 xülasə**

**İşin halları:**
İrəli sürülmüş ittihama əsasən, şəxs həkim mama-ginekoloq vəzifəsində işləyərkən işinə vicdansız və laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini lazımi qaydada yerinə yetirməyərək, zərərçəkmiş şəxsin doğuşdan öncəki vəziyyətini düzgün qiymətləndirib zəruri olan müayinə üsullarını seçməyərək, dölün ana bətnində kəskin hipoksiya vəziyyətində olması cərrahiyyə əməliyyatın dərhal icra edilməsi üçün tibbi göstəriş olduğu halda, əməliyyatın icrasını, dölün ana bətnindən götürülməsini təmin etməməklə, ana bətnindən vaxtında götürülməyən dölün əməliyyatdan qısa müddət sonra perinatal mərkəzdə ölməsindən ibarət ağır nəticələrə səbəb olan səhlənkarlıq etmiş, daha sonra törətdiyi cinayət əməlinin ictimai təhlükəli nəticələrini görüb cinayət məsuliyyətindən yayınmaq niyyətilə öz səhlənkarlıq hərəkətlərini ört basdır etmək üçün zərərçəkmiş şəxsin doğumunun gedişini və nəticələrini əks etdirən və rəsmi sənəd hesab edilən “Doğum tarixi” sənədinə zərərçəkmiş şəxsin bətnində olan dölün perinatal mərkəzə daxil olarkən diri olması ekspertizanın rəyləri, şahid ifadələri və doğum tarixinin “Qəbulda hamilənin müayinəsi” vərəqəsində “Dölün ürək döyünməsi: yeri” qrafasının qarşısında yazılmış “Eşidilir 180” xətt və rəqəm nümunələri ilə təsdiq edildiyi halda, guya ki, onun tərəfindən aparılmış müayinə zamanı bətndaxili dölün ölü olması barədə Perinatal Mərkəzin qəbul otağında “ölü döl” qeydi yazıb rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı etmişdir.

**Birinci instansiya məhkəməsinin mövqeyi:**
Birinci instansiya məhkəməsinin hökmünə əsasən, CM-in 313 və 314.2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməllərinin törədilməsində təqsirli bilinib, CM-in 46.2-ci maddəsi tətbiq edilməklə CM-in 313-cü maddəsi ilə 1 il müddətə mama-ginekoloq həkimliyi fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilməklə 2 il müddətə islah işləri cəzasına, CM-in 314.2-ci maddəsi ilə 2 il 6 ay müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, CM-in 66.2-ci və 68.3-cü maddələrinə əsasən islah işləri cəzasının iki gününün azadlığın məhdudlaşdırılması cəzasının bir gününə bərabər tutulmaqla və təyin edilmiş cəzaları qismən toplamaqla qəti olaraq 1 il müddətə mama-ginekoloq həkimliyi fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilməklə 3 il müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuşdur.

**Apellyasiya instansiyası məhkəməsinin mövqeyi:**
Apellyasiya instansiyası məhkəməsinin hökmü ilə müdafiəçi tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilmiş, birinci instansiya məhkəməsinin hökmü şəxsin CM-in 313-cü maddəsi ilə təqsirli bilinərək məhkum edilməsinə dair hissəsində ləğv edilmiş, əməlində cinayət tərkibi olmadığına görə ona CM-in 313-cü maddəsi ilə bəraət verilmiş, CM-in 314.2-ci maddəsi üzrə əməl eyni Məcəllənin 142.4-cü maddəsinə tövsif edilməklə həmin maddə ilə təqsirli bilinmiş, barəsində CM-in 62-ci maddəsi tətbiq olunmaqla və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməməklə 2 il müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Kassasiya protesti təmin edilmiş, apellyasiya instansiyası məhkəməsinin hökmü ləğv edilmiş, cinayət işi apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**
1. Kassasiya kollegiyası mübahisələndirilən apellyasiya instansiyası məhkəməsinin hökmünün qanuniliyini və əsaslılığını yoxlayaraq belə qənaətə gəlmişdir ki, apellyasiya instansiyası məhkəməsi cinayət tərkibinin bütün elementlərini qarşılıqlı əlaqədə araşdırmamış, şəxsə qarşı irəli sürülmüş ittiham üzrə CM-in 313-cü maddəsində nəzərdə tutulan əməlin obyektiv cəhətinin mövcudluğu ümumiyyətlə yoxlanılmamış, bununla da cinayət-hüquqi tövsif üçün zəruri olan faktiki və hüquqi əsas müəyyən edilməmişdir. Bu şəraitdə subyekt və subyektiv cəhətə dair nəticələr tam cinayət tərkibi çərçivəsində deyil, ondan təcrid olunmuş şəkildə formalaşdırılmış, CM-in 3-cü maddəsinin tələb etdiyi kompleks hüquqi yanaşma tətbiq edilməmişdir. Nəticədə, xüsusi subyekt əlamətinin olmaması yalnız ilkin ittihamın istisna edilməsi kimi qiymətləndirilmiş, lakin əməlin digər mümkün cinayət tərkibi üzrə hüquqi tövsifi məsələsi araşdırılmamışdır.
2. Bu isə cinayət məsuliyyətinin yalnız qanunda nəzərdə tutulmuş tam cinayət tərkibi əsasında müəyyən edilməsi prinsipinə zidd olmaqla, iş üzrə səhv hüquqi nəticəyə gəlinməsinə səbəb olmuşdur.
3. Qeyd edilənlərlə əlaqədar xatırladılmalıdır ki, CM-in 313-cü maddəsi vəzifə saxtakarlığına görə məsuliyyəti nəzərdə tutur və vəzifəli şəxsin qulluq mənafeyinə zidd olaraq rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməsini, habelə həmin sənədlərdə düzəlişlər etməsini və ya bilə-bilə saxta sənədlər tərtib və ya verməsini cinayət hesab edir. Lakin, eyni xarakterli hüquqazidd davranış yalnız həmin maddənin dispozisiyası ilə məhdudlaşmır, belə ki, rəsmi sənədlərin saxtalaşdırılması, qanunsuz hazırlanması və ya satılması kimi oxşar əməllər CM-in 320.1-ci maddəsində də cinayət kimi nəzərdə tutulmuşdur və həmin norma bu növ hərəkətləri ümumi subyekt tərəfindən törədildiyi hallarda cinayət-hüquqi məsuliyyət dairəsinə aid edir.
4. Hər iki cinayət tərkibinin obyektiv cəhətində rəsmi sənədlərlə bağlı həqiqətə uyğun olmayan məlumatların yaradılması, sənədin saxtalaşdırılması və ya hüquqi dövriyyəyə daxil edilməsi kimi xarici davranış formaları nəzərdə tutulur. Bu baxımdan, həmin cinayətlərin fərqləndirilməsi ilk növbədə onların subyekt əlamətlərinin və cinayətin hüquqi obyektinin düzgün müəyyən edilməsini tələb edir.
5. CM-in 313-cü maddəsinin zəruri elementi xüsusi subyektdir. Bu maddə ilə yalnız vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb oluna bilər. Vəzifəli şəxs statusu həmin maddənin tərkib əlaməti olmaqla, maddənin tətbiqinin vacib şərtidir. Şəxsin vəzifəli şəxs hesab olunmaması onun əməlinin CM-in 313-cü maddəsi ilə tövsifini hüquqi cəhətdən istisna edir.
6. Lakin belə vəziyyətlə qarşılaşan məhkəmə və ya cinayət təqibini həyata keçirən orqan hüquqi qiymətləndirməni yalnız subyekt əlamətinin olmamasının təsdiqi ilə yekunlaşdırmamalı, çünki obyektiv cəhət üzrə təsvir olunan davranışın mövcudluğu əməlin digər cinayət-hüquqi normalar baxımından yenidən tövsifini zəruri edir. Bu baxımdan CM-in 313-cü maddəsi üzrə xüsusi subyektin mövcud olmaması avtomatik olaraq əməlin cinayət-hüquqi xarakterini aradan qaldırmır, əksinə, onun başqa normativ tərkib üzrə qiymətləndirilməsinə keçidi tələb edir.
7. Məhz bu mərhələdə CM-in 320.1-ci maddəsinin dispozisiyası nəzərdən keçirilməlidir, ona görə ki, həmin norma rəsmi sənədin saxtalaşdırılması, qanunsuz hazırlanması və ya satılması kimi əməlləri xüsusi subyekt tələb etmədən kriminalizasiya edir. Bu maddə üzrə cinayət tərkibinin subyekti ümumi subyektdir, yəni cinayət məsuliyyətinə cəlb edilə bilən, anlaqlı və qanunla müəyyən edilmiş yaş həddinə çatmış hər hansı fiziki şəxs bu cinayətin subyekti ola bilər.
8. Bu o deməkdir ki, CM-in 320.1-ci maddəsi vəzifə statusundan asılı olmayaraq rəsmi sənədlərin saxtalaşdırılması ilə bağlı ictimai təhlükəli əməlləri ümumi cinayət-hüquqi qiymətləndirmə müstəvisinə daxil etdiyindən, şəxsin vəzifəli şəxs statusunun olmaması onun əməlini cinayət-hüquqi qiymətləndirmədən kənarda qoymamalı, əksinə, obyektiv cəhətin mövcudluğu şəraitində qiymətləndirmə CM-in 320.1-ci maddəsi əsasında davam etdirilməli və hüquqi tövsif həmin normanın tələblərinə uyğun aparılmalıdır.

9. Baxılan iş üzrə isə apellyasiya instansiyası məhkəməsi şəxsə qarşı irəli sürülmüş ittihama əsasən CM-in 313-cü maddəsi üzrə törədilmiş əməldə xüsusi subyekt əlamətinin, yəni onun vəzifəli şəxs statusuna malik olmadığını əsas götürməklə kifayətlənmiş, lakin bu nəticədən çıxış edərək əməl üzrə obyektiv cəhətin digər cinayət-hüquqi tərkiblərlə müqayisəli şəkildə qiymətləndirilməsini həyata keçirməmiş, xüsusilə CM-in 320.1-ci maddəsi ilə nəzərdə tutulmuş tərkib baxımından mümkün hüquqi tövsifin araşdırılmasına dair zəruri hüquqi təhlili aparmamışdır.
10. Nəticədə, apellyasiya instansiyası məhkəməsi cinayət-hüquqi tövsifin mərhələli və kompleks xarakterini təmin etmədən, yalnız cinayət işi üzrə CM-in 313-cü maddəsinin xüsusi subyekt əlamətinin müəyyən edilmədiyini əsas götürərək yekun qənaətə gəlmiş, bununla da əməl üzrə hüquqi qiymətləndirmənin və tövsifin bütün mümkün istiqamətlər üzrə tam həcmdə aparılmasını təmin etməmişdir. Belə yanaşma CM-in 313-cü maddəsi üzrə bəraət verilməsi ilə kifayətlənilməsinin cinayət-hüquqi qiymətləndirmənin tam, hərtərəfli və sistemli şəkildə aparılması vəzifəsinin yerinə yetirilmədiyini göstərir və apellyasiya instansiyası məhkəməsinin iş üzrə maddi hüquq normalarını düzgün tətbiq etməməsi nəticəsinə gəlməyə əsas verir.
11. Odur ki, kassasiya kollegiyası hesab etmişdir ki, apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə qanuni və əsaslı olmadığından, kassasiya protestinin mübahisələndirilən hökmün həmin hissəsinə dair dəlilləri yetərli hesab edilməli və protest bu hissədə təmin edilməlidir.
12. Kassasiya protestinin növbəti - irəli sürülmüş ittiham üzrə əməlin CM-in 314.2-ci maddəsindən eyni Məcəllənin 142.4-cü maddəsinə tövsif edilməsi və bu zaman cinayət qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı dəlilinə münasibətdə məhkəmə kollegiyası qeyd etmişdir ki, CM-in 10.3-cü maddəsi cinayət qanununun zaman baxımından tətbiqi institutunun mühüm elementlərindən birini təşkil edir və cinayət hüququnda qanunun geriyə şamil olunması məsələsini tənzimləyir. Bu norma mahiyyət etibarilə hüquqi dövlət, ədalət, humanizm və şəxsin hüquqi vəziyyətinin ağırlaşdırılmaması prinsipləri ilə sıx bağlıdır. Maddənin mənasına görə, əməlin cinayət sayılmasını aradan qaldıran, cəzanı yüngülləşdirən və ya cinayət törətmiş şəxsin vəziyyətini başqa qaydada yaxşılaşdıran yeni qanun, müəyyən hallarda, onun qüvvəyə minməsindən əvvəl əməli törətmiş şəxslərə də tətbiq oluna bilər.
13. Qanunun geriyə şamil olunması dedikdə, sonradan qəbul edilmiş cinayət hüquqi normanın, onun qüvvəyə minməsindən əvvəl baş vermiş əmələ və həmin əməli törətmiş şəxsə tətbiq edilməsi başa düşülür. Cinayət hüququnda ümumi qayda ondan ibarətdir ki, əmələ onun törədildiyi vaxt qüvvədə olan qanun tətbiq edilir. Bu, tempus regit actum – "zaman əməli idarə edir" – qaydasının cinayət hüququnda tətbiqidir. Həmin qayda hüquqi müəyyənlik və şəxsin öz davranışını qabaqcadan hüquqi nöqteyi-nəzərdən qiymətləndirə bilməsi baxımından vacib əhəmiyyət daşıyır. Lakin istisna olaraq, yeni qanun şəxs üçün daha əlverişlidirsə, yəni onun vəziyyətini yaxşılaşdırırsa, həmin qanunun geriyə qüvvəsi tanınır. Beləliklə, retrospektiv tətbiq cinayət hüququnda ümumi prinsip deyil, yalnız qanunun humanist məzmunu ilə əsaslanan xüsusi istisnadır.
14. Bu cür tətbiqin mümkün olduğu hallar normanın öz mahiyyətindən irəli gəlir - maddənin mətnində üç əsas tətbiq halı müəyyən edilir. Birinci hal dekriminallaşdırmadır: əvvəllər cinayət hesab olunan əməl yeni qanunla cinayət siyahısından çıxarılır. Bu, ən güclü retrospektiv tətbiq halıdır, belə ki, cəmiyyət həmin davranışı artıq kriminogen hesab etmədiyindən, şəxsin törətdiyi anda cinayət sayılan əmələ görə məsuliyyət daşımağa davam etməsi qeyri-ədalətli olardı. İkinci hal cəzanın yüngülləşdirilməsidir: yeni qanun eyni əmələ görə daha yüngül növdə və ya az həddə sanksiya nəzərdə tutur və bu halda yeni sanksiya tətbiq olunmalıdır. Üçüncü hal isə vəziyyətin başqa cür yaxşılaşdırılmasıdır – bu geniş formula cinayətin tövsifini yüngülləşdirən, məsuliyyəti istisna edən yeni halların normaya daxil edilməsini, normanın hər hansı formada liberallaşdırılmasını əhatə edir.
15. Yuxarıda qeyd edilənlərin fonunda mübahisələndirilən hökmün müvafiq hissəsinin təhlili belə nəticəyə gəlməyə əsas vermişdir ki, CM-in 314.2-ci maddəsi üzrə ittiham edilən əməlin

CM-in 142.4-cü maddəsinə tövsif edilməsi, yuxarıda göstərilən üçüncü hal – cinayət-hüquqi tövsifin yüngülləşdirilməsi və bununla məhkum edilmiş şəxsin vəziyyətinin yaxşılaşdırılması məqsədinə yönəlmişdir.
16. Lakin, apellyasiya instansiyası məhkəməsinin baxılan iş üzrə qəbul etdiyi hökmün təsviri hissəsi nəzərdən keçirildikdə müəyyən olunur ki, məhkəmənin qiymətləndirilməsi əvvəlcə şəxsə qarşı irəli sürülmüş ittiham üzrə CM-in 313-cü maddəsinə münasibətdə aparılmışdır. Həmin hissədə məhkəmə CM-in 313-cü maddəsinin dispozitiv şərtlərindən, ibtidai istintaq dövründə toplanmış və birinci instansiya məhkəməsində icraat dövründə tədqiq edilmiş sübutların məcmusundan, eləcə də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 19 iyul 2013-cü il tarixli "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair" qərarında göstərilən hüquqi mövqedən çıxış edərək, şəxsin "vəzifəli şəxs" olmadığı barədə nəticəyə gəlmiş, müvafiq olaraq vəzifə saxtakarlığı cinayətinin subyekti ola bilmədiyindən, ona həmin maddə ilə bəraət verilməli olduğunu hökm etmişdir.
17. Göründüyü kimi, məhkəmənin yekun qənaəti qeyri-müəyyən olmaqla ziddiyyət təşkil etmişdir – şəxs hökmün təsviri-əsaslandırıcı hissəsində əvvəl həmin dövrdə CM-də mövcud olmamış 142.4-cü maddəsi üzrə təqsirli hesab edilmiş, davamında isə ittihamın həmin hissəsinə aid olan əməl CM-in 142.4-cü maddəsi üzrə tövsif edilmişdir.
18. Yuxarıda qeyd edilənlər yekunda onunla nəticələnmişdir ki, apellyasiya instansiyası məhkəməsi şəxsə qarşı verilmiş ittiham üzrə CM-in 314.2-ci maddəsinə aid hissəyə münasibətdə həm prosessual, həm də maddi normaların tətbiqində kobud səhvlərə yol vermişdir.
19. Belə ki, CM-in 313 və 314.2-ci maddələrinin dispozisiyalarının təhlili göstərir ki, hər iki maddədə nəzərdə tutulmuş əməllər yalnız xüsusi subyekt – vəzifəli şəxs tərəfindən törədildiyi halda cinayət məsuliyyətinə səbəb olur və bu baxımdan həmin normalar subyekt əlaməti üzrə eyniyyət təşkil edir. Mübahisələndirilən hökmdən isə müəyyən edilir ki, apellyasiya instansiyası məhkəməsi əvvəlcə şəxsə qarşı CM-in 313-cü maddəsi üzrə irəli sürülmüş ittihamı qiymətləndirərək onun vəzifəli şəxs statusuna malik olmadığı, bu səbəbdən həmin maddə üzrə cinayətin subyekti ola bilmədiyi qənaətinə gəlmiş və ona həmin hissədə bəraət vermişdir. Daha sonra isə eyni hüquqi mövqeyə, yəni onun vəzifəli şəxs olmamasına bir daha istinad edilmiş, CM-in 314.2-ci maddəsi üzrə də subyekt əlamətinin yalnız vəzifəli şəxs olması təkrar qeyd olunmuşdur. Bununla yanaşı, irəli sürülmüş ittiham üzrə 314.2-ci maddənin tətbiqi ilə bağlı fərqli nəticəyə gəlinərək əməl başqa maddə üzrə tövsif edilməli olduğu qənaəti ifadə edilmişdir ki, bu da apellyasiya instansiyası məhkəməsinin hüquqi mövqeyində ziddiyyətə səbəb olmuşdur.
20. Yəni, CM-in 313 və 314.2-ci maddələrinin subyekti eyni olmaqla vəzifəli şəxs hesab edildiyi, irəli sürülmüş ittihamda isə şəxsin hər iki cinayət əməli üzrə məhz vəzifəli şəxs qismində çıxış etməsi göstərildiyi halda, apellyasiya instansiyası məhkəməsi hökmünün bir hissəsində CM-in 313-cü maddəsi üzrə vəzifəli şəxs olmadığını əsas gətirərək ona bəraət vermiş, digər hissəsində isə onun CM-in 314.2-ci maddəsi üzrə də vəzifəli şəxs olmadığını qeyd etməklə əməlinin başqa cinayət tərkibi üzrə tövsif edilməli olduğu qənaətinə gəlmiş, nəticədə ittiham üzrə subyekt əlaməti baxımından eyni maddi tərkibli əməllərə bir-biri ilə uzlaşmayan hüquqi yanaşma nümayiş etdirilmişdir.
21. Digər tərəfdən, CM-in 314.2-ci maddəsi ilə irəli sürülmüş ittiham üzrə nəticə verilərkən apellyasiya instansiyası məhkəməsi maddi hüquq normasını da düzgün tətbiq etməmiş, CM-in 10-cu maddəsinə istinad edərək, CM-in 314.2-ci maddəsi ilə ittihamın irəli sürülməsinə əsas verən əməli onun törədildiyi dövrdə qüvvədə olmayan CM-in 142.4-cü maddəsi ilə tövsif etməklə, cinayət qanununun geriyə qüvvəsinin yaranması üçün zəruri olan həlledici imperativ şərti nəzərdən qaçırmışdır.
22. Yuxarıda təfsir edilənlərin əksinə olaraq, apellyasiya instansiyası məhkəməsi CM-in 313 və 314.2-ci maddələri üzrə irəli sürülmüş ittihamlar baxımından onun vəzifəli şəxs statusuna

dair ziddiyyətli hüquqi nəticələrə gəlməklə yanaşı, habelə CM-in 314.2-ci maddəsi üzrə əməlin hüquqi qiymətləndirilməsi zamanı həmin əməldə "vəzifəli şəxs" xüsusi subyekt əlamətinin və nəticə etibarilə cinayət tərkibinin mövcud olmadığını müəyyən etməklə onu faktiki olaraq bəraət verilməli olan şəxs hesab etmişdir. Belə olan halda CM-in 10.3-cü maddəsinin tətbiqi üçün zəruri şərt olan "cinayət törətmiş şəxs" statusunun mövcud olmamasına baxmayaraq, həmin normaya istinad edilərək əməlin daha yüngül cinayət qanunu ilə tövsif edilməsi maddi hüquq normasının mahiyyətinə zidd olmaqla onun tətbiqi üçün nəzərdə tutulmuş imperativ şərtin pozulmasına səbəb olmuşdur.

23. Mövcud vəziyyətdə, irəli sürülmüş ittiham üzrə CM-in 314.2-ci maddəsinə aid əməlin məhkəmə kollegiyasının özünün hüquqi təfsiri əsasında da CM-in 142.4-cü maddəsinə tövsif edilməsi qeyri-mümkündür ona görə ki, bu cür hüquqi qiymətləndirmənin verilməsi üçün əvvəl şəxs CM-in 314-cü maddəsi ilə təqsirli hesab edilməlidir.

24. Odur ki, törətdilmiş əməlin CM-in 314.2-ci maddəsindən eyni Məcəllənin 142.4-cü maddəsinə tövsif edilməsi zamanı cinayət və cinayət-prosessual qanunvericiliyinin tələblərinin pozulmasına yol verildiyinə dair kassasiya protestinin dəlilləri əsaslı hesab edilməli, həmin əmələ münasibətdə məhkəmə kollegiyası tərəfindən müəyyən edilmiş hüquqi mövqeyə uyğun olaraq yenidən qiymətləndirmə aparılmaqla müvafiq hüquqi nəticə verilməlidir.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## Mülki işlər üzrə ★★★ statuslu qərar

**2[1-8]-1115/2026 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**
Tərəflər çoxmənzilli yaşayış binasının eyni girişində eyni mərtəbəsində qonşudurlar. Cavabdeh öz mənzilinin giriş hissəsində və dəhlizdə təhlükəsizlik məqsədilə müşahidə kameraları quraşdırmışdır.

İddiaçı həmin kameraların onun şəxsi həyatının toxunulmazlığını pozduğunu bildirərək, bunun cavabdehə qadağan edilməsi, konstitusion hüquqlarının pozulması nəticəsində dəymiş maddi və mənəvi ziyanın ödənilməsi barədə iddia qaldırmışdır.

**Məhkəmələrin mövqeyi:**
Ali Məhkəmənin Plenumunun "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" 2025-ci il 24 dekabr tarixli qərarının şəxsi toxunulmazlıq və təsvirin müdafiəsi hüququ ilə bağlı bəndlərinin məzmunundan göründüyü kimi, şəxsi həyat anlayışı yalnız şəxsin mənzilinin daxilində baş verən hadisələrlə məhdudlaşmır. Şəxsin yaşayış yerinə giriş və çıxışı, onunla əlaqə saxlayan şəxslər və barəsində müəyyən təsəvvür formalaşdırmağa imkan verən digər məlumatlar da şəxsi həyatın müdafiə olunan elementləri hesab olunur. Buna görə də konkret şəxs barədə belə məlumatların davamlı şəkildə toplanmasına, təsvirinin sistemli şəkildə qeydə alınmasına imkan verən müşahidə şəxsi həyata, o cümlədən təsvirin müdafiəsi hüququna müdaxilə kimi qiymətləndirilə bilər.

Baxılan iş üzrə cavabdeh tərəfindən yaşayış binasının ümumi istifadədə olan dəhlizində və ya mənzillərin giriş hissəsində quraşdırılmış kameraların görüntü bucağı yalnız cavabdehin mənzilinin girişini deyil, həm ümumi istifadədə olan dəhlizi, həm də iddiaçının mənzilinin giriş qapısını və həmin mənzilə giriş-çıxışı əhatə edir. Belə müşahidə nəticəsində iddiaçının mənzilə nə vaxt daxil olması və ya çıxması, mənzilə kimlərin gəlib-getməsi, gündəlik həyat ritmi və onun şəxsi həyatına dair digər məlumatların, habelə təsvirinin müntəzəm şəkildə qeydə alınması imkanı yaranmışdır ki, bu da həmin şəxsin Konstitusiyanın 32-ci maddəsi ilə qorunan şəxsi həyat sferasına yönəlmiş müdaxilə xarakteri daşıyır.

Bu baxımdan, çoxmənzilli yaşayış binasının ümumi istifadədə olan dəhlizində və ya mənzilin giriş hissəsində digər qonşuların mənzillərini də əhatə edən müşahidə kamerasının quraşdırılması yalnız həmin şəxslərin razılığı olduqda yolverilən hesab edilə bilər. Belə razılıq olmadıqda isə təhlükəsizlik məqsədi ilə quraşdırılan kamera yalnız onu quraşdıran şəxsin mənzilinin giriş hissəsinin müşahidəsi üçün zəruri olan görüntü bucağı ilə məhdudlaşdırılmalıdır. Kameranın görüntü dairəsi ümumi istifadədə olan sahəni və (və ya) digər qonşuların mənzillərinin girişini və həmin mənzillərə giriş-çıxışı da əhatə edərsə, bu artıq həmin şəxslərin şəxsiyyət hüquqlarına müdaxilə hesab olunur.

Cavabdehin öz mülkiyyətinin və əmlakının təhlükəsizliyini təmin etmək hüququ qanunla qorunan hüquqdur. Lakin hər bir subyektiv hüququn həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarına hörmət prinsipi çərçivəsində baş verməlidir. Buna görə də təhlükəsizlik məqsədilə müşahidə kamerasının quraşdırılması mümkün olsa da, onun görüntü bucağı zərurət həddini aşaraq digər şəxslərin razılığı olmadan onların mənzillərinin girişini, giriş-çıxışını və təsvirini davamlı şəkildə qeydə almağa imkan verirsə, belə istifadə artıq digər şəxslərin şəxsiyyət

hüquqlarına müdaxilə hesab olunur.

Məhkəmələr məhz bu tarazlığı nəzərə alaraq cavabdehin təhlükəsizlik məqsədilə müşahidə kamerasından istifadə etmək hüququnu tam məhdudlaşdırmamış, yalnız qapısının üstündə quraşdırılmış kameranın görüntü bucağının öz mənzilinin giriş hissəsi ilə məhdudlaşdırılmasını və ümumi istifadədə olan dəhlizdə quraşdırılmış digər kameranın isə sökülməsini qət etmişdir. Belə müdaxilə tərəflərin hüquqları arasında ədalətli balansın təmin edilməsinə yönəlmiş, zəruri və proporsional tədbir hesab olunmuşdur.

Məhkəmələr həmçinin qeyd edib ki, şəxsin iradəsi xaricində uzun müddət müşahidə olunması və təsvirinin müntəzəm qeydə alınması onda daimi izlənildiyi hissini yarada, psixoloji narahatlıq və mənəvi iztirablara səbəb ola bilər. Belə hallarda şəxsi həyata qanunsuz müdaxilə sübuta yetirilərsə, mənəvi zərərin ayrıca sübut edilməsinə ehtiyac yoxdur. Hüquqazidd müdaxilənin özü mənəvi zərərin mövcudluğu barədə prezumpsiya yaradır və əksini iddia edən şəxs bunu sübut etməlidir.

Bu hüquqi mövqeyə əsaslanaraq məhkəmələr qonşunun şəxsi həyat hüququnun pozulduğunu qəbul etməklə yanaşı, onun xeyrinə mənəvi zərər əvəzinin tutulmasını qanuni hesab edib.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# Qanunvericiliyə edilmiş dəyişikliklər

## 1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2026-cı il 5 iyun tarixli 417-VIIQD nömrəli Qanunu

Hüquqi akta keçid

2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanunla "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda bir sıra mühüm dəyişikliklər edilmişdir. Dəyişikliklərlə qanunun bəzi normaları təkmilləşdirilmiş, korrupsiya anlayışı yeni redaksiyada verilmiş, həmçinin "korrupsiya riski", "korrupsiya risklərinin idarə edilməsi" və "səlahiyyətli struktur bölmə (şəxs)" kimi yeni anlayışlar qanuna əlavə edilmişdir.

Qanuna əlavə edilmiş 8-1-ci maddəyə əsasən, orqanın rəhbəri tərəfindən korrupsiya risklərinin idarə edilməsini təmin etmək məqsədilə səlahiyyətli struktur bölmənin (şəxsin) müəyyən edilməsi və zərurət yarandıqda bu prosesə xüsusi bilik və ixtisas tələb edən sahələr üzrə mütəxəssislərin cəlb edilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat verən şəxslərin hüquqlarının müdafiəsi mexanizmi daha da gücləndirilmişdir. Belə ki, korrupsiya ilə bağlı hüquqpozmalar haqqında məlumat vermiş işçiyə bu səbəbdən birbaşa və ya dolayı yolla qisas almaq məqsədilə intizam tənbehi tətbiq edilməsi, əmək müqaviləsinə xitam verilməsi, vəzifədən azad edilməsi, başqa işə keçirilməsi və ya digər mənfi tədbirlərin görülməsi qadağan edilmişdir.

2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" və "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarında uyğunlaşdırma xarakterli dəyişikliklər edilmişdir.

Bu dəyişikliklərə əsasən, korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat vermiş şəxsə və ya onun yaxın qohumlarına qarşı hədə-qorxu gəlmək, təzyiq göstərmək, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və ya təhdid etmək, onların şərəf və ləyaqətini alçaltmaq qadağan edilmişdir.

Bundan əlavə, korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat vermiş şəxslərin attestasiyası zamanı korrupsiyaya qarşı mübarizə sahəsində səlahiyyətli struktur bölmənin (şəxsin) həmin prosesdə birbaşa və ya dolayı yolla iştirakı qadağan edilmişdir. Həmçinin, belə şəxslərə qarşı qisas məqsədilə intizam tənbehi tətbiq edildiyi iddia olunduqda, irəli sürülən dəlillərin təkzib edilməsi yükü işəgötürənin üzərinə qoyulmuşdur.

Hüquqi
akta keçid

## 2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 423-VIIQD nömrəli Qanunu

Dəyişiklik bir sıra qanunlarla qadağan olunmuş əməllərə görə inzibati məsuliyyətin müəyyən edilməsini nəzərdə tutur.
Bu əməllərə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə şəxslərin işə qəbul edilməsi, tibbi arayış, tibbi rəy olmadan işçinin müvafiq peşə və ya vəzifəyə qəbulu, barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsi barədə yalan və təhrif olunmuş məlumatın verilməsi, maliyyə icarəsi fəaliyyətinə dair hesabatların təqdim edilməməsi, yaxud düzgün təqdim edilməməsi, habelə ərzaq balansının tərtibi ilə bağlı zəruri məlumatların təqdim edilməməsi daxildir.

Hüquqi
akta keçid

## 3. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 429 nömrəli Qanunu

Dəyişiklik təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxslərin, cinayət prosesində iştirak edən digər şəxslər kateqoriyasına daxil edilməsi, həmin şəxslərin qanuni mənafeyinə toxunulan şəxs qismində cinayət prosesinə cəlb edilməsi, cinayət prosesində iştirak edən şəxslər kimi apellyasiya, kassasiya, əlavə kassasiya şikayəti vermək hüquqları və qaydalarını tənzimləyir.
Digər dəyişiklik isə cinayət mühakimə icraatı üzrə əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarının mülki mühakimə icraatı qaydasında deyil, məhkəmə nəzarəti qaydasında mübahisələndirilməsinin nəzərdə tutulmasıdır.
Digər qanunlarda bu dəyişiklikdən irəli gələrək uyğunlaşdırma xarakterli dəyişikliklər edilmişdir.

Hüquqi akta keçid

## 4. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 430-VIIQD nömrəli Qanunu

Dəyişiklik Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraatla bağlı bəzi müddətlərin artırılmasını nəzərdə tutur.
Dəyişikliklə sadələşdirilmiş icraat, məlumatın təhqiqatçıya, müstəntiqə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora daxil olduğu vaxtdan 10 gün müddətinə deyil, 30 gün müddətində aparılması müəyyən edilmişdir.
Bununla yanaşı, Məcəllənin bir sıra maddələrində "şikayət" sözü "məlumat" sözü ilə əvəz edilmişdir.
Eyni zamanda hüquqi şəxslər tərəfindən də cinayət hadisəsi barədə məlumat verilməsinin mümkünlüyü nəzərə alınaraq, böyük ictimai təhlükə törətməyən aşkar cinayət üzrə yazılı məlumatda və ya şifahi məlumatın qəbul edilməsi barədə protokolda, həmçinin məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair yekun protokolda hüquqi şəxsə dair müvafiq məlumatların göstərilməsi dəyişiklikdə nəzərdə tutulmuşdur.

Hüquqi akta keçid

## 5. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanunu

Dəyişiklikdə psixi pozuntusu olan şəxsin sağlamlıq vəziyyəti və ona göstərilən psixiatriya yardımı tədbirləri, habelə müalicədən imtina ilə bağlı məlumatların elektron sağlamlıq kartı sisteminə daxil edilməsi və həmin məlumatların əldə olunması ilə bağlı tənzimləmələr nəzərdə tutulur. Bundan başqa qeyri-könüllü psixiatriya yardımı və psixiatriya müayinəsinin aparılması prosedurlarının təkmilləşdirilməsi, səlahiyyətli orqanların qərarları əsasında təxirəsalınmaz hallarda müayinənin həyata keçirilməsi, aidiyyəti şəxslərin məlumatlandırılması mexanizmlərinin dəqiqləşdirilməsi və digər məsələlər dəyişiklikdə öz əksini tapıb.

Hüquqi
akta keçid

## 6. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 721 nömrəli Fərmanı

Dəyişiklik 2026-cı il 3 mart tarixli "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi və onun tətbiqi ilə bağlıdır.
Dəyişikliklə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 2-ci hissəsinə 2.9-cu bənd əlavə edilmiş və prokurorluq orqanının uşaq hüquqlarının müdafiəsi üzrə səlahiyyətləri ayrıca təsbit olunmuşdur.

Hüquqi
akta keçid

## 7. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2026-cı il 30 iyun tarixli 201 nömrəli Qərarı

"Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərar ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin "İnformasiya sisteminin funksiyaları" adlı 6-cı bəndinə müvafiq dəyişikliklər edilmişdir.
Dəyişikliyin məqsədi xüsusi icra məmurlarının fəaliyyətinin "Elektron icra" informasiya sisteminə inteqrasiyasını təmin etmək, onların icra icraatı üzrə tərtib etdikləri sənədlərin və məlumatların elektron informasiya sisteminə daxil edilməsini hüquqi cəhətdən tənzimləməkdir.

Hüquqi
akta keçid

## 8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2026-cı il 21 iyul tarixli 226 nömrəli Qərarı

"Süni intellektin inkişafı üçün milli prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısı"nın təsdiq edilməsi haqqında qərar qəbul edilmişdir.
Qərara əsasən milli prioritet sektorlar üzrə (məhkəmə sektoru) məsul dövlət orqanlarından biri Azərbaycan Respublikasının Ali Məhkəməsi müəyyən edilmişdir.

Hüquqi akta keçid

## 9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 22 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 22 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I və IV hissələri və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 122.2.3 və 449.3-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi akta keçid

## 10. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 23 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 23 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 34-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında A.Şükürovanın şikayəti üzrə Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 14.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin III hissəsinə və 71-ci maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi
akta keçid

## 11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 24 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 24 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsinin I hissəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 420-ci maddəsinin həmin Məcəllənin 65.1, 142.1 və 397-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi
akta keçid

## 12. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 25 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 25 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsi və 80-ci maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598.7-ci maddəsinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 3.1 və 3.1.2-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

№ 08/2026

Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının
Məhkəmə təcrübəsinin təhlili şöbəsi

# DÜNYADA HÜQUQ

Azərbaycan Respublikasının
Ali Məhkəməsi

# Konstitusiya, dövlət idarəçiliyi və məhkəmə-hüquq islahatları

## 1. Macarıstan Konstitusiyasına məhkəmə və dövlət idarəçiliyi üzrə bir sıra düzəlişlər edildi



Xəbərin əslinə keçid

Macarıstan Prezidenti Tamaş Şuyok onun prezidentlik mandatına dərhal xitam verən Konstitusiyanın on yeddinci düzəlişini imzalayıb. Prezidentin mandatının başa çatdırılması ilə yanaşı, Macarıstan Konstitusiyasına edilən on yeddinci düzəliş ölkənin siyasi və məhkəmə institutlarına dair bir sıra dəyişiklikləri də nəzərdə tutur. Dəyişiklik parlament üzvlərinin mandatını maksimum 12 il və ya üç mandatlıq müddətlə məhdudlaşdırır, Konstitusiya Məhkəməsi hakimləri üçün isə 70 yaş həddi müəyyən edir. Hakimlərə Ali Məhkəmənin və Milli Məhkəmə İdarəsinin rəhbərlərinin vəzifədən geri çağırılması prosesini başlatmaq imkanı verilir. Sənəd həmçinin qanunsuz əldə olunmuş dövlət əmlakının geri qaytarılması və qorunması üçün ayrıca milli idarənin yaradılmasına hüquqi əsas yaradır.

## 2. Qazaxıstan Konstitusiya Məhkəməsi Tokayevin yenidən prezidentliyə namizəd ola biləcəyinə qərar verdi



Xəbərin əslinə keçid

Qazaxıstan Konstitusiya Məhkəməsi Prezident Kasım-Jomart Tokayevin yeni Konstitusiyaya əsasən daha bir prezidentlik müddəti üçün namizəd ola biləcəyini açıqlayıb. Yeni Konstitusiya prezidentliyi bir dəfəlik yeddiillik müddətlə məhdudlaşdırsa da, məhkəmə əvvəlki Konstitusiya dövründə keçirilmiş müddətlərin bu məhdudiyyətə daxil edilmədiyini müəyyən edib. Beləliklə, Tokayevin 2022-ci ildən başlayan hazırkı müddəti yeni konstitusion limit baxımından nəzərə alınmaya bilər. Yeni Konstitusiya həmçinin vitse-prezident vəzifəsi yaradır və ikipalatalı parlamenti daha kiçik birpalatalı qanunverici orqanla əvəz edir.

## 3. Moldovada məhkəmə proseslərinin rəqəmsallaşdırılması genişləndirilir

Moldova hökuməti məhkəmə prosedurlarını daha sürətli və əlçatan etmək məqsədilə rəqəmsal alətlərin istifadəsini genişləndirən qanun layihəsini təsdiqləyib. Layihə məhkəmə iştirakçılarının elektron qaydada çağırılmasını, prosessual sənədlərin rəqəmsal göndərilməsini və ərizələrin onlayn təqdim edilməsini nəzərdə tutur. Videokonfrans vasitəsilə iştirak artıq yalnız istisna hallarda deyil, məhkəmə prosesinə qoşulmağın adi üsullarından biri kimi istifadə ediləcək. Məhkəmələr çağırış və sənədlərin çatdırılması üçün lazım olan məlumatları dövlət qurumlarının qarşılıqlı məlumat mübadiləsi platformasından da əldə edə biləcəklər.



Xəbərin əslinə keçid

## 4. Tacikistanda hüquq sisteminin və dövlət xidmətlərinin rəqəmsallaşdırılması sürətləndirilir





Tacikistan Prezidenti Emoməli Rəhmon Ədliyyə Nazirliyinə ölkənin hüquq sistemində müasir texnologiyaların tətbiqini və dövlət xidmətlərinin rəqəmsallaşdırılmasını sürətləndirməyi tapşırıb. Əsas istiqamətlər sırasında elektron hökumətin inkişafı, mərkəzləşdirilmiş hüquqi məlumat bazalarının yaradılması, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı xidmətlərinin təkmilləşdirilməsi yer alır. Prezident həmçinin normativ hüquqi akt layihələrinin keyfiyyətinin artırılmasını və əhalinin hüquqi maarifləndirilməsinin gücləndirilməsini tələb edib.

Xəbərin əslinə keçid

# İnsan hüquqları, şəxsi azadlıqlar və ictimai sağlamlıq

## 5. BMT: İsrailin Livana zərbələri beynəlxalq cinayətlər təşkil edə bilər



Xəbərin əslinə keçid

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türk İsrailin Livana endirdiyi zərbələr nəticəsində yaranmış dağıntı və məcburi köçkünlüyün beynəlxalq cinayətlər təşkil edə biləcəyi barədə xəbərdarlıq edib. O, Livana ikigünlük səfəri zamanı yaşayış evlərinin, məktəblərin, səhiyyə müəssisələrinin, su və elektrik infrastrukturunun, eləcə də kənd təsərrüfatı ərazilərinin dağıdılması barədə məlumatlar toplayıb. Volker Türk bildirib ki, hücumlar beynəlxalq humanitar hüququn fərqləndirmə və mütənasiblik prinsiplərinin, habelə hücum zamanı bütün mümkün ehtiyat tədbirlərinin görülməsi öhdəliyinin pozulması ehtimalını yaradır. Qəsdən adam öldürmə, mülki şəxslərə yönəlmiş hücumlar və genişmiqyaslı məcburi köçürmə kimi ağır pozuntular müəyyən şərtlər daxilində müharibə cinayəti sayıla bilər.

## 6. Dehlidə şəxslərin ittiham irəli sürülmədən 12 ayadək saxlanılmasına icazə verildi



Xəbərin əslinə keçid

Dehlinin qubernator müavini Hindistanın Milli Təhlükəsizlik Aktının 3(2)-ci maddəsini tətbiq edərək polisə şəxsləri ittiham irəli sürmədən 12 ayadək saxlamaq səlahiyyəti verib. Qərar tibb məktəblərinə qəbul imtahanının cavablarının sızdırılmasından sonra başlamış kütləvi tələbə etirazları fonunda qəbul edilib və oktyabrın 18-dək qüvvədə olacaq. Bir sıra ictimai birliklər (Məs. Amnesty International) bu tədbirin hüquqi yardım, həbsin səbəbləri barədə məlumatlandırılma və ədalətli məhkəmə araşdırması hüquqlarını ciddi şəkildə məhdudlaşdırdığını bildirib. Təşkilatlar Milli Təhlükəsizlik Aktının əvvəlki etirazlar zamanı da sui-istifadə edildiyini qeyd edərək qərarın gərginliyi daha da artıra biləcəyi barədə xəbərdarlıq edib.

## 7. Portuqaliyada ictimai yerlərdə üzün örtülməsini qadağan edən qanun tənqid edildi

Portuqaliya parlamenti ictimai yerlərdə şəxsin üzünü gizlədən geyim və vasitələrin istifadəsini ümumi şəkildə qadağan edən qanun qəbul edib. İlkin layihədə burqa və niqab kimi İslam dini geyimlərinə birbaşa istinad edilsə də, konstitusion problemlər səbəbindən yekun mətn bütün üz örtüklərinə tətbiq edilən neytral qayda kimi hazırlanıb. Qadağa xüsusilə müsəlman qadınların dini etiqad azadlığına, təhsilə, işə və ictimai xidmətlərə çıxışına mənfi təsir göstərə bilər. Bununla bağlı ictimai birliklər təhlükəsizlik məqsədilə üz örtüyünün çıxarılmasını tələb edən mövcud qaydaların kifayət etdiyini və ümumi qadağanın ayrı-seçkilik riskini artırdığını vurğulayıb.



Xəbərin əslinə keçid

## 8. İspaniya restoran terraslarında və çimərliklərdə siqareti qadağan etməyə hazırlaşır







İspaniya Nazirlər Şurası siqaret çəkilməyən əraziləri genişləndirən yeni anti-tütün qanun layihəsini təsdiqləyib və sənəd parlament müzakirəsinə göndərilib. Layihə qəbul edilərsə, restoran və bar terraslarında, dəniz və çay çimərliklərində, hovuzlarda, idman obyektlərində, milli parklarda və kütləvi tədbirlərin keçirildiyi yerlərdə siqaret və elektron siqaret istifadəsi qadağan olunacaq. Dövlət binaları, xəstəxanalar, məktəblər, universitetlər, muzeylər və uşaq meydançalarının girişləri ətrafında 15 metrlik tüstüsüz zonaların yaradılması da nəzərdə tutulur. Qanun layihəsi 18 yaşdan kiçik şəxslərin tütün məhsullarından istifadəsini ayrıca qadağan edir və pozuntunun ağırlığından asılı olaraq 200 avrodan 600 min avroyadək cərimə müəyyənləşdirir.

Xəbərin əslinə keçid

## 9. Fransa sağalmaz xəstəliyi olan bəzi şəxslər üçün tibbi yardımla ölümü qanuniləşdirir



Xəbərin əslinə keçid

Fransa parlamentinin aşağı palatası sağalmaz və həyati təhlükə yaradan xəstəlikdən əziyyət çəkən bəzi yetkin şəxslərə tibbi yardımla həyatlarına son qoymaq hüququ verən qanunu 291 səs lehinə, 241 səs əleyhinə olmaqla qəbul edib. Bu hüquq yalnız 18 yaşdan yuxarı Fransa vətəndaşlarına və ya ölkədə qanuni yaşayan, xəstəliyi irəliləmiş və dözülməz ağrıları aradan qaldırıla bilməyən şəxslərə şamil olunacaq. Müraciət həkim və digər səhiyyə mütəxəssisləri tərəfindən qiymətləndiriləcək, qərardan əvvəl isə ən azı iki günlük düşünmə müddəti veriləcək. Qanunun qüvvəyə minməsindən əvvəl onun konstitusiyaya uyğunluğu Fransanın ali konstitusiya orqanı tərəfindən yoxlanılmalıdır.

## 10. Şahzadə Harri "Daily Mail" nəşriyyatına qarşı məxfiliyə dair məhkəmə işində məğlub oldu



Xəbərin əslinə keçid

Böyük Britaniyanın Ali Məhkəməsi Şahzadə Harri və digər altı şəxsin "Daily Mail" qəzetinin nəşriyyatı Associated Newspapers-a qarşı qaldırdığı məxfilik və qanunsuz məlumat toplama iddiasını rədd edib. İddiaçılar nəşriyyatı telefonların dinlənilməsi, şəxsi müstəntiqlərdən istifadə və məxfi məlumatların qanunsuz əldə edilməsində günahlandırırdılar. Hakim bildirib ki, iddiaçılar irəli sürdükləri ittihamları sübut edə bilməyiblər və məlumatın şəxsi xarakter daşıması onun mütləq qanunsuz yolla əldə edildiyini göstərmir. Şahzadə Harri qərarı əsassız adlandırsa da, nəşriyyat bunu jurnalistikasının tam bəraət qazanması kimi qiymətləndirib.

# 11. Rusiya xaricdə yaşayan tənqidçilərin bank və konsulluq xidmətlərinə çıxışını məhdudlaşdırır





Rusiya Dövlət Duması xaricdə yaşayan və hökumət əleyhinə fəaliyyətə görə qiyabi məhkum edilmiş şəxslərə qarşı geniş məhdudiyyətlər nəzərdə tutan qanunvericilik paketini qəbul edib. Hədəfə alınan şəxslər onlayn bank xidmətlərindən, daşınmaz əmlak və avtomobil əməliyyatlarından, eləcə də Rusiya səfirliklərinin konsulluq xidmətlərindən məhrum edilə bilərlər. Bu məhdudiyyətlər onların pasportlarını yeniləməsinə və nikahlarını rəsmi qeydiyyata aldırmasına da mane ola bilər. Hüquq müdafiəçiləri "vətəndaş ölümü qanunu" adlandırdıqları dəyişikliklərin xaricdəki şəxsləri faktiki olaraq vətəndaşlıq hüquqlarının əsas üstünlüklərindən məhrum etdiyini bildirirlər.

Xəbərin əslinə keçid

# Beynəlxalq hüquq, hüquqi məsuliyyət və gündəlik həyata təsir edən qaydalar

## 12. Tramp administrasiyası Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyətini "iflic etmək" kampaniyasına başladı



Xəbərin əslinə keçid

ABŞ Dövlət Departamenti Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyət imkanlarını sistemli şəkildə məhdudlaşdırmaq üçün bütün dövlət qurumlarını əhatə edən təzyiq kampaniyası elan edib. Nəzərdən keçirilən tədbirlər sırasında BCM əməkdaşlarına və məhkəmə ilə əlaqəli təşkilatlara qarşı əlavə sanksiyalar və səyahət qadağaları yer alır. ABŞ həmçinin hərbi və hüquq-mühafizə sahəsində əməkdaşlıq etdiyi ölkələrdən məhkəmənin amerikalı vəzifəli şəxslər üzərində yurisdiksiyasını tanımamağı tələb edə bilər. ABŞ Roma Statutunun iştirakçısı olmasa da, amerikalılar statutun tərəfi olan dövlətlərin ərazisində törədildiyi iddia edilən cinayətlər üzrə araşdırıla bilərlər.

## 13. Çad Beynəlxalq Cinayət Məhkəməsindən çıxmaq niyyətini açıqladı



Xəbərin əslinə keçid

Çad hökuməti Beynəlxalq Cinayət Məhkəməsini səmərəsizlikdə və Afrika ölkələrinə qarşı qərəzli münasibətdə ittiham edərək Roma Statutundan çıxmaq niyyətini açıqlayıb. Ölkə çıxma prosedurunun başlanması üçün BMT-yə rəsmi məktub təqdim edib və prosesin tamamlanması ən azı bir il çəkəcək. Çad 2025-ci ildən sonra Niger, Mali və Burkina Fasodan sonra BCM-dən çıxmaq prosesinə başlayan dördüncü Afrika ölkəsidir. ABŞ administrasiyası qərarı alqışlayaraq digər üzv dövlətləri də məhkəmədən çıxmağa çağırıb.

## 14. eBay təqib və kibertəzyiqlə bağlı məhkəmə işi üzrə 55,7 milyon dollar ödəyəcək

eBay və şirkətin üç keçmiş yüksəkvəzifəli rəhbəri Massaçusetsdə yaşayan David və İna Steiner cütlüyünün qaldırdığı iddianı həll etmək üçün ümumilikdə 55,7 milyon dollar ödəməyə razılaşıb. Cütlük eBay haqqında tənqidi yazılar dərc etdikdən sonra şirkətin əməkdaşları tərəfindən izlənilib və onlara tarakan, milçək sürfələri və qanlı donuz maskası kimi qorxuducu əşyalar göndərilib. Razılaşmaya əsasən, eBay cütlüyə 46,15 milyon dollar ödəyəcək, həmçinin qeyri-kommersiya təşkilatlarına 6 milyon dollar ianə veriləcək. Kampaniyada iştirak edən yeddi keçmiş eBay əməkdaşı daha əvvəl təqsirini etiraf etmiş və onların bəziləri 57 ayadək həbs cəzası almışdı.



Xəbərin əslinə keçid

## 15. Zendayanın taxdığı 3 min illik İran sırğaları talan edilmiş mədəni irs mübahisəsi yaratdı





Aktrisa Zendayanın Londonda keçirilən film təqdimatında təxminən 3 min illik İran qızıl artefaktlarını sırğa kimi taxması mədəni irsin mənşəyi və qanuni dövriyyəsi ilə bağlı müzakirələrə səbəb olub. Birinci minilliyə aid qızıl medalyonların İranın şimal-qərbində aşkar edilmiş Ziwiyeh xəzinəsi ilə əlaqəli olduğu və sonradan brilyantlarla yenidən işlənərək sırğaya çevrildiyi bildirilir. Bəzi arxeoloqlar əşyaların İrandan qanunsuz çıxarılmış ola biləcəyini söyləsələr də, artefaktların sahibi olan Barron London qalereyası onların sənədləşdirilmiş mənşəyə və bütün hüquqi tələblərə uyğun saxlanıldığını açıqlayıb. İran hakimiyyəti konkret sırğaların qaytarılmasını tələb etməsə də, hadisə talan edilmiş mədəni sərvətlərin repatriasiyası və məşhurlar tərəfindən qədim artefaktlardan istifadə edilməsinin etik-hüquqi tərəflərini yenidən gündəmə gətirib.

Xəbərin əslinə keçid

## 16. Avstraliyada restoranlar dəniz məhsullarının mənşəyini menyuda göstərməlidir



Xəbərin əslinə keçid

Avstraliyada 1 iyul 2026-cı ildən etibarən restoran, kafe, pab, hotel, fast-food məntəqəsi və food-trucklar təqdim etdikləri dəniz məhsullarının mənşəyini göstərməlidirlər. Məhsullar "Avstraliya mənşəli", "idxal edilmiş" və ya "Avstraliya və idxal məhsullarının qarışığı" kimi işarələnəcək. Bu məlumat müştəri sifariş verməzdən əvvəl menyuda, elektron sifariş səhifəsində və ya görünən digər yerdə təqdim edilməlidir. Yeni qaydalar istehlakçıların məlumatlı seçim etməsini və ictimai iaşə sektorunda şəffaflığın artırılmasını hədəfləyir.

## 17. Niderlandda bəzi elektrik skuterləri üçün dövlət nömrə nişanı məcburi oldu



Xəbərin əslinə keçid

Niderlandda 1 iyul 2026-cı ildən etibarən "xüsusi moped" kateqoriyasına daxil olan yüngül nəqliyyat vasitələri dövlət nömrə nişanı ilə qeydiyyata alınmalıdır. Bu kateqoriyaya müəyyən növ elektrik skuterləri, Segway modelləri və uşaq daşınmasında istifadə olunan xüsusi elektrik nəqliyyat vasitələri daxildir. Nömrə nişanı olmayan nəqliyyat vasitəsinin ictimai yolda idarə edilməsi qadağandır və pozuntu cərimə ilə nəticələnə bilər. Qeydiyyat üçün nəqliyyat vasitəsi RDW (Niderland hökumətinin müvafiq orqanı) texniki baxış məntəqəsinə təqdim edilməli, qeydiyyatdan sonra isə sığortalanmalıdır.

# Süni intellekt, sosial media və rəqəmsal informasiya hüququ

## 18. Hüquq firması vəkillərin süni intellekt "əkizlərini" yaratdı



Xəbərin əslinə keçid

ABŞ-ın Vorys hüquq firması Stanford Hüquq Məktəbinin süni intellekt laboratoriyası ilə birlikdə 19 tərəfdaş vəkilin rəqəmsal "Sİ personasını" hazırlayıb. Bu sistemlər hüquqi suallara konkret vəkilin düşüncə və iş üslubuna uyğun cavab verir, həmçinin sənədləri həmin şəxsin yanaşması əsasında redaktə edir. Süni intellekt modelləri vəkillərin əvvəlki sənədləri əsasında deyil, onların təcrübəsi, dəyərləri və hüquqi yanaşması barədə aparılan geniş müsahibələr əsasında yaradılıb. Firma bu alətlərin vəkili əvəz etmədiyini, səhv və uydurma nəticələr ehtimalına görə bütün materialların insan tərəfindən yoxlanılmalı olduğunu vurğulayır.

## 19. Avropa Komissiyası TikTok-u azyaşlıların məxfiliyini lazımi səviyyədə qorumamaqda ittiham etdi




Xəbərin əslinə keçid

Avropa Komissiyası ilkin nəticəsində TikTok-un Rəqəmsal Xidmətlər Aktının azyaşlıların təhlükəsizliyi və məxfiliyi ilə bağlı tələblərinə əməl etmədiyini müəyyən edib. Komissiyaya görə, platformanın mövcud parametrləri azyaşlıların hesab və paylaşımlarını böyüklər və hətta TikTok hesabı olmayan şəxslər üçün görünən edə bilər. Bu vəziyyət uşaqları arzuolunmaz əlaqələr, kiberzorakılıq və istismar riski ilə üz-üzə qoyur, həmçinin onların paylaşdığı məzmunun uzun müddət internetdə qalmasına səbəb olur. İlkin nəticələr təsdiqlənərsə, TikTok-un qlobal illik dövriyyəsinin 6 faizinə qədər cərimələnməsi mümkündür.

## 20. Fransa 15 yaşdan kiçik uşaqların sosial mediadan istifadəsini qadağan edir

Fransa qanunvericiləri 15 yaşdan kiçik uşaqların sosial media platformalarından istifadəsini qadağan edən qanun layihəsini qəbul ediblər. Qanun layihəsi uşaqların psixi sağlamlığının qorunması, kiberzorakılığın və ekran asılılığının azaldılması məqsədi daşıyır, həmçinin məktəblərdə mobil telefonların istifadəsini məhdudlaşdırır. Sosial media platformaları Avropa İttifaqının Rəqəmsal Xidmətlər Aktı ilə də tənzimləndiyi üçün Fransa layihə barədə Avropa İttifaqını əvvəlcədən məlumatlandırıb. Qanunun 1 sentyabr 2026-cı ildən tətbiqi nəzərdə tutulsa da, bundan əvvəl onun konstitusiyaya uyğunluğu yoxlanılmalıdır.




Xəbərin əslinə keçid

## 21. Cənubi Koreyada saxta və manipulyasiya edilmiş məlumatlara qarşı yeni qanun qüvvəyə mindi





Cənubi Koreyada yeni qanun vasitəsilə süni intellekt vasitəsilə yaradılan məzmun və sosial şəbəkələrdə yayılan dezinformasiya ilə mübarizəyə başlanılıb. Mənfəət əldə etmək və ya zərər vurmaq məqsədilə bilərəkdən saxta məlumat yayan media qurumları və sosial media influenserləri faktiki zərərin beş mislinədək kompensasiya ödəyə bilərlər. Təkrar pozuntuya yol verən şəxslər üçün bir milyard vona qədər cərimə, gündəlik istifadəçi sayı bir milyondan çox olan platformalar üçün isə məlumatların şikayət edilməsi sistemini yaratmaq öhdəliyi nəzərdə tutulur. Obyektiv faktlara əsaslanan rəylər, dəyər mühakimələri, satira və parodiya saxta məlumat anlayışından istisna edilsə də, tənqidçilər qanunun ifadə azadlığına mənfi təsir göstərə biləcəyini bildirirlər.

Xəbərin əslinə keçid

## 22. Avropa İttifaqında real görünən süni intellekt məzmununun etiketlənməsi məcburi oldu




Xəbərin əslinə keçid

Avropa İttifaqının Süni İntellekt Aktına əsasən, real təsir bağışlayan süni intellektlə yaradılmış mətn, şəkil, video və səs materialları açıq şəkildə etiketlənməlidir. Şirkətlər istifadəçilərə süni intellekt əsaslı çatbotla ünsiyyət qurduqlarını və ya manipulyasiya edilmiş məzmuna baxdıqlarını bildirməli, belə materiallara onların süni mənşəyini göstərən rəqəmsal nişan əlavə etməlidirlər. İctimai maraq doğuran məsələlər haqqında insan redaktəsi olmadan yaradılmış mətnlər də süni intellekt məhsulu kimi göstərilməlidir. Qaydalara əməl etməyən şirkətlər 15 milyon avroyadək və ya qlobal illik dövriyyələrinin 3 faizinədək cərimə oluna bilərlər.

**Qeyd edirik ki, bülletendə yer alan bütün məlumatlar açıq internet resurslarından götürülmüşdür. Məlumatların düzgünlüyü və aktuallığı üçün məsuliyyət həmin mənbələrə məxsusdur.*

**Əlavə məlumat və suallar üçün:**

Nilgün Məmmədova - 1830

Bahar Oruclu - 1818

*Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin təhlili şöbəsi*

# Faydalı keçidlər

1. UN News – https://news.un.org
2. Council of Europe Newsroom – https://www..int/en/web/portal/news
3. EU Law & Justice News – https://europa.eu/newsroom
4. OECD – https://oecd.org/newsroom
5. Avropa İnsan Hüquqları Məhkəməsi (ECHR HUDOC) – https://hudoc.echr.coe.int
6. Avropa Ədalət Məhkəməsi (ECJ/ CJEU) – https://curia.europa.eu
7. Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) – https://icj-cij.org
8. Transparency International – https://transparency.org
9. World Justice Project – https://worldjusticeproject.org
10. UNODC – https://unodc.org
11. Harvard Law Today – https://today.law.harvard.edu
12. Stanford Law and Technology Review - https://law.stanford.edu/stanford-technology-law-review-stlr/
13. The Guardian – Law section – https://theguardian.com/law
14. Law.com International– https://www.law.com/international
15. Reuters Legal – https://www.reuters.com/legal
16. Bloomberg Law – https://news.bloomberglaw.com
17. Financial Times – Law Section – https://www.ft.com/law
18. JURIST – https://www.jurist.org
19. Law360 – https://www.law360.com.
20. Global Arbitration Review (GAR) – https://globalarbitrationreview.com
21. The Lawyer – https://www.thelawyer.com
22. European Law Blog – https://europeanlawblog.eu
23. Euractiv – Justice & Home Affairs – https://www.euractiv.com/section/justice-home-affairs
24. ABA Journal (American Bar Association) – https://www.abajournal.com
25. International Association of Judges – https://www.iaj-uim.org/iuw/